Azərbaycan Respublikası adından

**QƏRARDAD**

| | | |
|---|---|---|
| Bakı şəhəri | İş № 10(102)-28/2019 | 18.02.2019 |

**ALİ MƏHKƏMƏ**

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsinin
Mülki Kollegiyasının

QƏRARİ

| | | |
|---|---|---|
| 18 fevral 2019-cu il | İŞ № 10(102)-28/2019 | Bakı şəhəri |

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının hakimləri Nurməmmədov Əhməd Güləhməd oğlu (sədrlik edən və məruzəçi), Əhmədova Mehparə Tofiq qızı və Rüstəmov Əli Məhəmməd oğlundan ibarət tərkibdə, Novruzova Ülviyyə Alim qızının katibliyi, tələbkar nin nümayəndəsi və vəkili X1 iştirakı ilə, xarici məhkəmə qətnamələrinin tanınması və icrası qaydasında işə baxaraq,

Müəyyən etdi:

İran İslam Respublikasının Bəndər Ənzəli Məhkəmə Kompleksinin 3 saylı şəhər Ümumi-Hüquqi Məhkəməsinin 12.08.2017-ci il tarixli qərarının Azərbaycan Respublikasında tanınması və icrası haqqında İran İslam Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyinin vəsatəti və onunla əlaqədar məhkəmə sənədləri daxil olmuşdur.

Vəsatətə əlavə olunmuş İran İslam Respublikasının Bəndər Ənzəli Məhkəmə Kompleksinin 3 saylı şəhər Ümumi-Hüquqi Məhkəməsinin 12.08.2017-ci il tarixli qərarından və həmin qərar əsasında verilmiş icra vərəqindən görünür ki, cavabdeh “İrsotr” şirkəti iddiaçı nin xeyrinə 845.237.142 rial ödəməlidir.

Aşağıdakı əsaslara görə vəsatət təmin edilməlidir.

Belə ki, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin458.1 və 458.2-ci maddələrinə görəxarici məhkəmələrin qətnamələri Azərbaycan Respublikasının qanunlarında və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulduğu hallarda, yaxud qarşılıqlı anlaşma əsasında Azərbaycan Respublikasında tanınır və icra edilir.Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa qaydalar nəzərdə tutulmamışsa, xarici məhkəmələrin qətnamələrinin tanınması şərtləri və qaydası və icra edilməsi bu Məcəllədə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

Həmin Məcəllənin 462-ci maddəsinə əsasən xarici dövlətlərin məhkəmələrinin qətnamələri Azərbaycan Respublikasının qanunvericiliyinə, hüquq qaydasına zidd deyildirsə və qarşılıqlı təminatlandırılmışdırsa, Azərbaycan Respublikasında icra edilə və tanına bilər.

İş materiallarını araşdıraraq məhkəmə kollegiyası hesab edir ki, İran İslam Respublikasının Bəndər Ənzəli Məhkəmə Kompleksinin 3 saylı şəhər Ümumi-Hüquqi Məhkəməsinin 12.08.2017-ci il tarixli qərarının Azərbaycan Respublikasında

tanınmasından və məcburi icraya yönəldilməsindən imtina üçün Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 465-ci maddəsində nəzərdə tutulmuş əsaslar yoxdur, həmin qərar İran İslam Respublikasının qanunvericiliyinə görə qanuni qüvvəyə minmişdir, Azərbaycan Respublikası məhkəməsinin icraatında eyni tərəflər arasında, eyni predmet barədə və eyni əsaslarla olan mübahisə barədə iş başlanmamışdır, bu barədə Azərbaycan Respublikası məhkəmələrinin qərarı yoxdur.

Yuxarıda şərh edilənlərə əsasən və Azərbaycan Respublikası MPM-nin 458,459, 462 və 465-ci maddələrini rəhbər tutaraq məhkəmə kollegiyası

Qərara alır:

Vəsatət təmin edilsin.

İran İslam Respublikasının Bəndər Ənzəli Məhkəmə Kompleksinin 3 saylı şəhər Ümumi-Hüquqi Məhkəməsinin 12.08.2017-ci il tarixli qərarı Azərbaycan Respublikasında tanınsın və icraya yönəldilsin.

Sədrlik edən:
Əsli ilə düzdür
Ali Məhkəmənin hakimi Əhməd Nurməmmədov